# Mingəçevirdə 1 İyun– Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd edilib

***1 İyun –Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibəti ilə Mingəçevirdə geniş tədbir keçirilib. Əvvəlcə Mingəçevir Şəhər Qeydiyyat Şöbəsi tərəfindən yeni doğulan uşaqların doğum haqqında şəhadətnamələri valideyinlərinə təqdim edilib.***



Uşaqların bayramına qatılan şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov valideyinlərlə görüşüb, onları və övladlarını bu gün münasibəti ilə təbrik edib. Şəhər Qeydiyyat şöbəsinin rəisi Sevinc xanım Hüseynova çıxış edərək qeyd edib ki, " Dünyanın hər yerində uşaqlara qayğı və uşaqların qorunması xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Uşaqların Beynəlxalq Müdafiəsi Günü uzun illərdir bütün dünyada qeyd edilir və hər bir ölkə, hər bir dövlət uşaqları qorumağı, uşaqları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir.Bu gün biz ilk olaraq nikah evində qeydiyyatda olan sağlam nikahdan olan uşaqların doğum şəhadətnaməsini böyük sevinclə təqdim edirik. Qoy həmişə sağlam ailələrdən belə sağlam övladlar dünyaya gəlsin".

Daha sonra tədbirdə Mingəçevir şəhər xəstəxanasının baş həkimi Yusif Quliyev, icra hakimiyyəti başçısının müavini Hikmət Kərimov çıxış edərək uşaqları və valideyinləri təbrik ediblər. Niyazi Bayramov yeni doğulan körpələrin doğum haqqında şəhadətnamələrini valideynlərinə təqdim edib.

Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva daim uşaqlara diqqət və qayğı göstərir.Azərbaycanda uşaqlar həmişə firavan yaşayıb və yaşayacaqlar.

Sonda Mingəçevir Dövlət Dram Teatrında şəhərdəki uşaq bağçalarının balaca fidanları konsert proqramı ilə çıxış ediblər. Bu rəngarəng çıxışlara uşaqlarla birlikdə əyləşərək tamaşa edən icra başçısı hər bir çıxışçını alqışlayıb və onların məharətinə heyranlığını bildirib.

***İ.MUSAOĞLU,***
***"Xalq qəzeti"***